


# Zəfər seçkisi

Dekabrın 30-da Mərkəzi Seçki Komissiyası (MSK) Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən İlham Əliyevin prezidentliyə namizədliyini qeydə alıb.

Bu barədə MSK-nın iclasında qərar qəbul olunub.

Məsələ barədə məlumatı MSK sədri Məzahir Pənahov təqdim edib.

Xatırladaq ki, YAP İdarə Heyəti dekabrın 15-də İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürüb. Dekabrın 16-da YAP İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə sənədləri MSK-ya təqdim edib.

MSK dekabrın 19-da İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsini təsdiqləyib.

YAP dekabrın 26-da İlham Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə MSK-ya təqdim edib.

Prezident İlham Əliyev fevralın 7-də növbədənkənar prezident seçkisinin keçirilmə səbəbləri ilə bağlı qərarına səbəb olan amilləri ictimaiyyətə açıqlayıb.

O, yerli televiziyalara müsahibəsində belə bir qərar verməsini 3 səbəblə izah edib: suverenliyin bərpası, ilk dəfə ölkənin hər yerində seçki keçirilməsi imkanı və ötən il prezident kimi onun fəaliyyətinin 20 ilinin tamam olması.

Hazırda növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq işləri respublikanın hər yerində sürətlə davam edir. Bu il fevralın 7-də Şərqi Zəngəzurda və Qarabağda müstəqillik illərinin ilk Prezident seçkiləri keçiriləcək.

Doğma Qəbələmizdə də bununla bağlı işlər davam edir. Qeyd edək ki, Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi üçün rayonda fəaliyyət göstərən 116 saylı Mərkəzi Seçki Dairəsində 59 Seçki Məntəqəsi formalaşmışdır. Bu seçkilərdə 53590 seçicinin səs verməsi proqnozlaşdırılır.

Rayonun seçici əhalisi Azərbaycan tarixinə Zəfər seçkisi kimi düşən Prezident seçkilərində aktiv iştirak etməli, seçkilərin şəffaf və demokratik keçməsində fəal olmalıdır.

**“Qəbələ”**

# Lideri güclü olmayan dövlətlər məğlubiyyətə məhkumdur

**(Əvvəli 3-cü səhifədə).**

ki, hətta əkin üçün müvəqqəti verilən on minlərlə hektar torpaqlar da onların ərazisi olaraq təsdiqlənsin. Amma Prezident İlham Əliyevin ədalətli yanaşması ondan ibarətdir ki, ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ya da sovetləşmə dövrünün xəritələri əsas götürülməlidir. Belə olan halda tarixi torpaqlarımızla bağlı bütün mübahisəli məsələlər də öz həllini asanlıqla tapmış olacaq.

Ölkəmizin bundan sonrakı inkişafı üçün növbəti hədəflərin və yeni missiyanın nədən ibarət olması ilə bağlı ölkə rəhbərinin fikir və mülahizələri də diqqəti xüsusi cəlb edir. O, vacib sayır ki, cəmiyyətdə bu istiqamətdə müzakirələr getməlidir. Baxmayaraq ki, birinci şəxs olaraq gələcək inkişafla bağlı, əlbəttə ki, dövlətin əsas söz sahibinin fikirləri var və bir çox hallarda onlar həlledici olacaq. Onun fikirləri ilə davam etsək, indiyə qədər əsas ideyamız torpaqların işğaldan azad olunması, ərazi bütövlüyü və suverenliyimizin tam bərqərar olması idi ki, artıq buna nail olduq: “..Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə təbii ki, əmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır...”.

Göründüyü kimi, Prezident açıq şəkildə bəyan edir ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Başqa sözlə, biz ölkəmizin növbəti 100 illik üçün inkişafını şərtləndirəcək əsas hədəfləri müəyyənləşdirməliyik. Elm adamı kimi məsələn, deyə bilərik ki, hər bir ölkənin uzun müddətə inkişafı üçün müəyyən olunan hədəfləri sırasında elm və təhsil ön yer tutur. Biz indiyə qədər elm və təhsildə rast gələnən çatışmazlıqlara Qarabağ probleminə görə göz yumurduq, çox qabartmırdıq. İndi artıq bundan sonrakı inkişafımızın əsasında keyfiyyətli elm və təhsilin dayanmasına, necə deyərlər, atacağımız hər bir addımın elmə əsaslandırılmasına çalışmalıyıq. Ələlxüsus hər bir sahə üçün yüksək ixtisaslı kadr hazırlığında kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçməliyik. Məhz bu amili nəzərə alan cənab Prezident gələcək inkişaf prioritetlərinin müəyyən olunmasının müzakirəsi prosesində elm adamlarının, ziyalıların olmasını ayrıca qeyd edir.

Beləliklə, cənab Prezidentin təbirincə desək, bundan sonra da elə istedadlı, vətənpərvər gənclik yetişdirməliyik ki, tarixi uğurlarımızla fəxr etsinlər, amma orada ilişib qalmasınlar, ölkəmizi özlərinin sahib olduqları bilik və intellektual bacarıqla daha da irəli apara bilsinlər.

**Azad MƏMMƏDOV,**
**“Qəbələ”**

## Onlar Vətən uğrunda vuruşmuşlar

# Vətən fədailəri

***Vətən ana qədər əzizdir, torpaq insanın yaşam məkanı, vətəni vətən edən məfhumdur.Torpağı vətənləşdirən isə anaların həyata bəxş etdiyi övladlarıdır. O övladlar ki, doğulduğu məkandan vətənin başladığını hiss edirlər. O övladlar ki, o məkanlara ata yurdum, anam obası, ana “kəndim” deyirlər; qayalarında mamır olub bitəcək qədər vətənsevər, vətənpərvər olurlar. O vətənpərvərlər ki, məbədgah saydıqları analar, uca dağ sandığı atalar, baldan şirin övladlarını belə düşünmədən vətən, torpaq yolunda ölümə belə göz qırpmırlar. Həm də baş tacı bacıların, qürur mənbəyi sayılan qardaşların toxunulmazlığı üçün vətən fədaisi olurlar. Axı vətən düşmən taptağında, yağı əlində olarsa, onlar bu alın ləkəsi ilə yaşamağı ömür sanmazlar! Elə buna görə də, vətən yolunda, xalqımızın firavanlığı, torpaqlarımızın azadlığı uğrunda canlarını belə qurban verir oğullar! Onların isə ən yüksək titul sayılan bir adı var; Şəhidlər!***

**Tarix üçün yadigar ad...**

II Vətən Müharibəsi - 44 günlük müharibə başlananda Mirzəbəyli kəndindən 64 nəfərdən çox gənc döyüşlərə qatılmışdı. Sadə, zəhmətkeş ailədə böyüyən bu vətənpərvər oğullar düşmən tapdağında olan torpaqlarımızı azad etmək və torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş fədailərin qisasını almaq üçün mərdliklə döyüşmüşlər. Əlbəttə onlar arasında yaralananlar, psixoloji travma alanlar da çox olmuşdur. Müharibə başa çatdıqdan sonra kənd əhalisinin döyüşən oğulları arasında şəhid olmadığı üçün daxili bir sevinc hissi var idi. Əlbəttə şəhidlər hər birimizin övladıdır, xalqın qürur yeridir. Ancaq acısı o qədər ağır ki... Heç bir həqiqi mənada deyilən xoş və təmtəraqlı sözlər, heç bir “isti” münasibət belə bu qürurlu adın altındakı acını azaltmır. Bu hissi dərd yüklü şəhid əzizləri daha aydın bilir, bu acını yaşayanlar bu acıların “şəhid” şahidləridir.

Ancaq düşmən ordumuz zəfər qazandıqdan sonra daha da vəhşiləşmişdilər, məğlubiyyəti qəbul etmək istəmirdilər. Buna görə də onlar sərhəd zonalarında iğtişaşlar, terror hadisələri törədirdilər. Belə hadisələr zamanı onlara layiqli cavablar verilsə də, şəhadətə qovuşan oğullarımızın itkisi qəlbimizi ağrıdırdı. Məhz belə oğullardan biri **Xəyyam Mirazim oğlu Səmədov**.

Xəyyam Səmədov qış fəslinin qar soyuğunun, şaxtalı bir fəslin doğumlusudur. O, 1986-cı ilin yanvar ayının 16-da Mirzəbəyli kəndində doğulmuşdur. Onun atası Mirazim Səmədov 1977 - 1987-ci illərdə hərbiçi işləmişdir. Həmçinin qohumları arasında da hərbi işdə işləyənlər olmuşdur. Bəlkə də hərbiçi olmaq arzusu buna görə onun yaddaşına hələ uşaq yaşlarından həkk olunmuşdur.

Xəyyam orta təhsilini doğulduğu kənddə almışdır. Ailədə 3 övlad idilər: Gülşən, Xəyyam, Elşad. Hər kəs öz həyat yolunu seçdi. Xəyyam hərbiçi olmaq istədiyi üçün bu müqəddəs sənətin arxasınca sənt aldı...

O, orta təhsilini başa vurduqdan sonra Heydər Əliyeb adına Ali Hərbi məktəbdə təhsilini davam etdirdi. 4 il təhsil aldıqdan sonra Beyləqanda “N” saylı hərbi hissədə işə başladı. Xəyyam Səmədov Daşkəsən, Tovuz, Beyləqan, Piriküşkül və Laçında hərbi xidmətdə olmuşdur. O, hərbçi peşəsinə həmişə hörmətlə, maraqla yanaşardı. 30 il əsarətdə qalan torpaqlarımız, öz yurd-yuvasından didərgin düşən soydaşlarımız, sərhəd zonalarında baş verən toqquşmalar, erməni mənfurlarının törətdikləri iğtişaşlar onu həmişə narahat edirdi. Məhz buna görə-erməni faşistlərinə layiqli cavab vermək üçün bu sənəti seçmişdi. 44 günlük müharibə zamanı Ali Baş Komandan İlham Əliyevin Dəmir yumruğu altında birləşən güclü ordumuz Zəfər qazandı. Xəyyamın da bu zəfərdə payı vardı. Çünki o, döyüşçü idi və mərdliklə döyüşmüşdü. Azərbaycan Respublikasının Milli Qəhrəmanı Polad Həşimovun hərbçi xarakteri, insanlığı, döyüş əzəməti həmişə ona örnək olmuşdur.



Xəyyam Səmədov öz nümunəvi xidmətinə görə mayor rütbəsinə yiyələnmişdi. Xəyyam xidmət etdiyi illərdə həm müharibə zamanı, həm də terror və iğtişaşlarda həmişə öndə olmuşdur.

Zəfər qazanıldıqdan sonra hər il sentyabr - 2020-ci il 27 sentyabrda müharibənin başlanması və Zəfər qazanılan noyabr ayında erməni mənfurları sərhəd zonalarında sanki bilərəkdən iğtişaşlar və terror hadisələri törədirdilər. Bu isə onların ölkəmizin qazandığı Zəfər tarixinə hiddətini əks elətdirirdi...

2023-cü ilin sentyabr ayında da düşmən mövqeləri terror hadisələri törətdilər. Bu hadisədə şəhid olanlar arasında Tüntül kəndindən Tamerlan Soltanbəyli və Xəyyam Səmədov da var idi...

Onlar öz doğma ata-ana yurdlarında Qəbələdə - Tüntül və Mirzəbəyli kəndində dəfn olundular. Xəyyam Səmədovun 2 oğul balası yadigar qaldı. Yox , təkcə övladları deyil, həmçinin onun insanlığı, hərbi xidmətinin izləri, aldığı xidməti rütbəsi, ən başlıcası xalqı, ailəsi, vətəni və doğulduğu bölgə üçün qürur və fəxr dolu bir qəhrəmanlıq salnaməsi, şəhadət yolu, şəhid adı tarix üçün “yadigar” qaldı. Oğulları isə qəhrəmanlıq davamçılarıdır. Qış möhkəmliyi, şaxta sərtliyi, qar bəyazlığı həkk olunmuş qəhrəmanlıq yolu... Axı o, fəslinin mərd, qorxmaz insanı idi; bahar ömürlü, hətta əbədilik bahar ömürlü biri.

**Qar tək bəyaz ömür**

**Qoşqar Üzeyirov** - O da bahar ömürlü biri... O qədər gənc ki, ona həyatın yalnız qırmızı xətlə yazılmış günlərini aid etmək olardı, qara rəng heç yaraşmırdı onun tarixinə. Qış fəslinin bahar körpəsi idi Qoşqar! 2002-ci ilin yanvar ayının 26-da Soltannuxa kəndində anadan olmuşdur. Qar bəyazlığı onun da ömrünə bərq vuracaq kimi öz əksini hopturmuşdu. Saflıq, ailəsinə, torpağına, xalqına bağlılıq onun körpə qəlbində o qədər sonsuz idi ki... Yeniyetmə biri sayılsa da, düşüncə tərzi zəngin idi. Hər sözü, kəlamı, hər hadisəni, hərəkəti özlüyündə mənalandırır, düzgün qiymətini verməyə çalışırdı. Həyata, təbiətə bağlı biri idi. Onun simasına baxdıqca da qəlbinin niyyəti aşkar olunurdu. Şəklinə baxdıqca sanki şəkil danışır sənlə... Yarım qalmış... Heç yarım qalmış belə “demək olmayan” yaşanmamış; arzu və istəkləri. Onlar gözlərinin dərinliyində yer almış sanki...

18 yaş nədir ki... İnsan var 80 il, bir əsr ömür sürər, ancaq onun yaşadığını yalnız ailəsi hiss edər.

**(Ardı 5-ci səhifədə).**